**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

# Q Ə R A R

**№ 6**

**Bakı şəhəri** **16 may 2023-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Fərid Çingiz oğlu Əhmədovun Dövlət Statistika Komitəsinin aparatında Kənd təsərrüfatı statistikası şöbəsinin Bitkiçilik statistikası sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün 2023-cü il aprel ayının 19-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Əhmədov Fərid Çingiz oğlu Dövlət Statistika Komitəsinin aparatında Kənd təsərrüfatı statistikası şöbəsinin Bitkiçilik statistikası sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü il yanvar ayının 13-də elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2023-cü il aprel ayının 19-da Dövlət Statistika Komitəsinin Kənd təsərrüfatı statistikası şöbəsinin müdiri Gündüz Məmmədov, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Nicat İsayev və müstəqil ekspert Musa Cabbarovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Əhmədov Fərid Çingiz oğluna müsahibə komissiyasının üzvləri Gündüz Məmmədov tərəfindən 12 bal, Nicat İsayev və Musa Cabbarov tərəfindən 13 bal verilmiş və nəticədə iştirakçı 12,7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 25.04.2023-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Əhmədov Fərid Çingiz oğlunun 25 aprel 2023-cü il tarixli apellyasiya şikayəti təmin edilməsin və Dövlət Statistika Komitəsinin aparatında Kənd təsərrüfatı statistikası şöbəsinin Bitkiçilik statistikası sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün 2023-cü il aprel ayının 19-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: